**ELAN**

**AMEA NƏSİMİ adına DİLÇİLİK İNSTİTUTUNDA İMADƏDDİN NƏSİMİNİN 650 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNAN RESPUBLİKA ELMİ KONFRANSI KEÇİRİLƏCƏK**



2019-cu ilin oktyabr ayında AMEA Nəsimi adına Dilçilik İnstitutunda dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunan **“İmadəddin Nəsiminin poetik dili və Azərbaycan ədəbi dilinin tarixi məsələləri”** mövzusunda respublika elmi konfransı keçiriləcək.

**KONFRANSDA İŞTİRAK ŞƏRTLƏRİ:**

- Konfransa təqdim edilən materiallar orijinal və daha əvvəlcə dərc edilməmiş olmalı, konfransın tematikası ilə uyğunluq təşkil etməlidir;
- Konfransın əsas işçi dili Azərbaycan dilidir. Məruzələrin mətni Türk, İngilis və Rus dillərində də ola bilər;
- Müəlliflər məqalələrini şəxsən Təşkilat Komitəsinə təqdim edə və ya şəxsi elektron poçt ünvanlarından istifadə etməklə nesimi.dilchilik@mail.ru e-poçt ünvanına göndərə bilərlər;
- Məruzələrin göndərilməsi üçün son tarix 30 sentyabr 2019-cu ildir.

**“KONFRANS MATERİALLARI”NDA DƏRC OLUNACAQ MƏQALƏLƏRİN TƏRTİBİ QAYDALARI:**

- Məqalə 12 ölçülü Times New Roman şrifti ilə, sətirlərarası 1 interval aralıqla tərtib olunmalıdır;
- Mətn vərəqində hər tərəfdən 2 sm. boşluq olmalıdır;
- Müvafiq xülasə və ədəbiyyat siyahısı da daxil olmaqla, məqalənin ümumi həcmi 5 səhifədən artıq olmamalıdır;
- Məqalənin sonunda ingilis və rus dillərində (məruzə mətni ingilis və ya rus dilində olduqda isə Azərbaycan dilində və digər müvafiq dildə) xülasə olmalıdır. Xülasədə müvafiq xarici dillərdə müəllifin adı və soyadı, onun aşağısında sərlövhə, bir sətir aşağıda isə icmal mətn əks olunmalıdır. Burada yığcam şəkildə mövzunun aktuallığı, elmi əhəmiyyəti, əldə olunmuş yeniliklər və nəticələr verilməlidir;
- Yazılara kompüterdə səhifə nömrəsi verilməməlidir;
- Sərlövhə böyük hərflərlə (Caps Lock), tünd rəngdə (Bold) mərkəzdə yazılmalıdır;

- Məqalə sərlövhəsinin altında müəllifin adı, soyadı, təmsil etdiyi təşkilatın adı, varsa elmi dərəcəsi və elmi adı, elektron poçt ünvanı və əlaqə telefonu göstərilməlidir;
- Məqalədə istifadə edilən bütün ədəbiyyat və internet resursları məqalənin sonunda əlifba sırası ilə düzülməli və mətndəki istinadlar həmin sıraya uyğun nömrələnməlidir. *Məsələn: (1, s.5).*
- İstifadə edilən ədəbiyyat siyahısı tərtib edilərkən istinad olunmuş mənbənin bütün buraxılış göstəriciləri (müəllif, sərlövhə, nəşr ili və yeri, ümumi səhifə, internet ünvanı və s.) dəqiq əks olunmalı, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi mətnlərdə istinadetmə qaydalarına əməl olunmalıdır:
- Elmi dərəcəsi olmayan müəlliflərin elmi rəhbərinin (və ya elmi rəyçisinin) adı, soyadı, elmi dərəcəsi (varsa elmi adı da), məqalənin sonunda göstərilməlidir *(Məqalədəki məlumatların səhihliyinə və araşdırmanın orijinallığına görə məsuliyyəti elmi rəhbər (elmi rəyçi) və müəllif daşıyır);*
- Təşkilat Komitəsinin qarşıya qoyduğu bu tələbləri ödəməyən məqalələr çap edilməyəcəkdir.
- "KONFRANS MATERIALLARI"nın çapı ödənişsizdir.

**KONFRANSIN BÖLMƏLƏRİ:**

1. İ. Nəsiminin poetik dilinin qrammatik quruluşu və leksik xüsusiyyətləri
2. İ. Nəsiminin şeir dilinin üslubiyyatı
3. Azərbaycan ədəbi dili tarixində Nəsimi mərhələsi
4. Azərbaycan ədəbi dili tarixi və Nəsimi ənənəsi
5. Anadilli poeziyanın təşəkkülü və inkişafı mərhələləri
6. Azərbaycan dili tarixinin öyrənilməsi: problemlər və perspektivlər

**TƏŞKİLAT KOMİTƏSİ**:
AMEA NƏSİMİ adına
DİLÇİLİK İNSTİTUTU

*Ünvan: Bakı şəhəri, H.Cavid prospekti, 115.*
*Tel.: (+994 12) 5372081*
*Veb-sayt: www.dilcilik.az*
*E-mail: ilinguistics@lan.ab.az*